**Əlavə 1**

**Bakı Ali Neft Məktəbinin "Doktorantura hazırlığı üzrə Attestasiya Komissiyası"nın ƏSASNAMƏSİ**

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə Bakı Ali Neft Məktəbində (bundan sonra – BANM) "Doktorantura hazırlığı üzrə Attestasiya Komissiyası"nın (bundan sonra – Komissiya) yaradılması, fəaliyyət istiqamətləri, hüquq və vəzifələrini müəyyən edir.

1.2. Komissiya BANM-də fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə təhsil alan doktorantların elmi-tədqiqat və tədris fəaliyyətinin nəticələrini qiymətləndirmək məqsədilə yaradılmış kollegial orqandır.

1.3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında" qanunlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nı, BANM-in Nizamnaməsini, eləcə də bu Əsasnaməni rəhbər tutur.

1.4. Komissiyanın məqsədi — doktorantların fərdi iş planlarının icrasına nəzarət etmək, onların elmi-tədqiqat fəaliyyətinin keyfiyyətini qiymətləndirmək, elmi rəhbərlərin hesabatlarını dinləmək və illik attestasiyanın nəticələrini müəyyənləşdirməkdir.

**2. Komissiyanın yaradılması və tərkibi**

2.1. Komissiya BANM-in rektorunun əmri ilə yaradılır və daimi əsasda fəaliyyət göstərir.

2.2. Komissiyanın tərkibi rektor tərəfindən müəyyən edilir və hər üç ildən bir yenidən təsdiqlənir.

2.3. Komissiyanın tərkibinə aşağıdakı şəxslər daxil edilir:

- Komissiyanın sədri: Tədris və elmi işlər üzrə prorektor
- Komissiyanın sədr müavini: Rəhbərlik yanında aparatda elmi katib

Komissiya üzvləri:

- Tədris işləri və akademik qeydiyyat şöbəsinin rəisi
- Keyfiyyətin təminatı şöbəsinin rəisi
- Müvafiq fakültə dekanları və dekan müavinləri
- Müvafiq kafedra müdirləri

- İxtisas üzrə professor-müəllim heyəti

2.4. Komissiyanın tərkibinə zərurət yarandıqda BANM rəhbərliyinin qərarı ilə dəyişikliklər edilə bilər.

2.5. Komissiyanın katibi Tədris işləri və akademik qeydiyyat şöbəsinin əməkdaşları arasından təyin edilir və iclasların təşkili, sənədlərin qeydiyyatı və protokollaşdırılmasına cavabdehdir.

**3. Komissiyanın fəaliyyət istiqamətləri və vəzifələri**

3.1. Doktorantların illik attestasiyasını təşkil etmək, fərdi iş planlarının yerinə yetirilməsini və elmi-tədqiqat fəaliyyətlərinin nəticələrini qiymətləndirmək;

3.2. Doktorantların elmi rəhbərlərinin illik hesabatlarını dinləmək və müvafiq tövsiyələr vermək;

3.3. Attestasiya prosesinin nəticələrinə dair “attestasiya olundu”, “şərti attestasiya olundu” və ya “attestasiya olunmadı” qərarlarından birini qəbul etmək;

3.4. Doktorantların elmi-tədqiqat fəaliyyətində aşkar olunan problemlər və təkmilləşdirilməyə ehtiyac olan istiqamətlər barədə BANM rəhbərliyinə təkliflər vermək;

3.5. Attestasiyanın nəticələrinə dair protokolların və hesabatların vaxtında hazırlanmasını təmin etmək;

3.6. Doktorantların fəaliyyətinə obyektiv və şəffaf qiymət verilməsi məqsədilə qiymətləndirmə meyarlarının tətbiqinə nəzarət etmək.

**4. Komissiyanın hüquqları**

Komissiya aşağıdakı hüquqlara malikdir:

4.1. Doktorantlardan illik fəaliyyətlərinə dair hesabat, elmi məqalələr, konfrans materialları və digər elmi əsərlərin təqdim olunmasını tələb etmək;

4.2. Elmi rəhbərləri, fakültə və kafedra nümayəndələrini attestasiyaya dəvət etmək;

4.3. Attestasiya zamanı təqdim olunan materialları qiymətləndirmək və müvafiq qərar qəbul etmək;

4.4. Doktorantın fəaliyyətində aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün şərti attestasiya qərarı ilə müddət təyin etmək;

4.5. Attestasiyanın nəticələri ilə bağlı BANM rəhbərliyinə hesabat təqdim etmək.

**5. Komissiyanın iş qaydası**

5.1. Komissiyanın iclasları hər ilin aprel–iyun ayları ərzində keçirilir.

5.2. Komissiya iclasları üzvlərin azı 2/3-si iştirak edirsə səlahiyyətli hesab edilir,

5.3. Komissiyanın qərarları açıq səsvermə yolu ilə, sadə səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər olduqda Komissiya sədrinin səsi həlledici sayılır.

5.4. Hər bir iclasın nəticələri üzrə protokol tərtib edilir və BANM rəhbərliyinə təqdim olunur.

5.5. Komissiya qərarları Elmi katib tərəfindən arxivləşdirilir.

**6. Komissiyanın üzvlərinin məsuliyyəti**

6.1. Komissiya üzvləri attestasiyanın keçirilməsi zamanı obyektivlik, qərəzsizlik və etik davranış prinsiplərinə əməl etməlidirlər.

6.2. Komissiya üzvləri tərəfindən məlumatların gizliliyinin pozulması və ya subyektiv qiymətləndirmə halları aşkarlandıqda BANM rəhbərliyi tərəfindən intizam tədbirləri görülə bilər.

**7. Hesabatlılıq**

7.1. Komissiya hər tədris ilinin sonunda BANM-in Elmi Şurasına illik fəaliyyət hesabatı təqdim edir.

7.2. Hesabatda doktorantların ümumi attestasiya nəticələri, tədris və tədqiqat prosesində aşkar edilmiş problemlər və onların aradan qaldırılması üçün təkliflər əks etdirilir.

**8. Yekun müddəalar**

8.1. Bu Əsasnamə BANM-in rektorunun əmri ilə təsdiq olunduğu gündən qüvvəyə minir.

8.2. Əsasnaməyə dəyişikliklər və əlavələr yalnız BANM-in rektorunun əmri ilə edilə bilər.

8.3. Əsasnamə BANM-in rəsmi internet səhifəsində yerləşdirilməlidir.

.

**Əlavə 2**

**Bakı Ali Neft Məktəbində doktorantların illik attestasiya keçmə Qaydaları**

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar Bakı Ali Neft Məktəbində (bundan sonra – BANM) fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə təhsil alan doktorantların illik attestasiyasının keçirilmə qaydasını müəyyən edir.

1.2. Qaydalar Azərbaycan Respublikasının Təhsil haqqında" (19 iyun 2009-cu il tarixli, 833-IIIQ nömrəli) və "Elm haqqında" (14 iyun 2016-ci tarixli, 271-VQ nömrəli) qanunlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli, 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na, BANM-in Nizamnaməsinə, eləcə də BANM-də təsdiq olunmuş "Doktorantura hazırlığı üzrə Attestasiya Komissiyası haqqında Əsasnamə"yə əsaslanır.

1.3. Attestasiyanın məqsədi doktorantların fərdi iş planlarında nəzərdə tutulmuş elmi-tədqiqat və tədris fəaliyyətlərinin icrasını, elmi nəticələrin keyfiyyətini və doktorantura proqramının məqsədlərinə uyğunluğunu qiymətləndirməkdən ibarətdir.

1.4. Attestasiyanın nəticələri doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi, elmi-tədqiqat işinin mərhələlərinin təsdiqi və dissertasiya müdafiəsinə buraxılması barədə qərar qəbul edilməsinə əsas yaradır.

1.5. Doktorantların illik attestasiyası ildə bir dəfədən az olmayaraq, hər tədris ilinin sonunda (aprel–iyun aylarında) BANM-in "Doktorantura hazırlığı üzrə Attestasiya Komissiyası" tərəfindən keçirilir.

**2. Attestasiyanın təşkili və keçirilməsi**

2.1. Doktorantların attestasiyasının təşkili və keçirilməsi "Doktorantura hazırlığı üzrə Attestasiya Komissiyası" tərəfindən həyata keçirilir.

2.2. Attestasiya BANM-də fəaliyyət göstərən bütün doktorantura ixtisaslarını əhatə edir.

2.3. Attestasiya zamanı doktorant fərdi iş planında nəzərdə tutulmuş aşağıdakı istiqamətlər üzrə fəaliyyətini təqdim edir:

- elmi-tədqiqat işinin icra vəziyyəti;
- elmi əsərlərin (məqalə, tezis, patent, monoqrafiya və s.) hazırlanması və nəşri;
- beynəlxalq və respublika konfranslarında çıxışlar;
- tədris və ya elmi seminar fəaliyyətində iştirak;
- növbəti tədris ili üçün planlaşdırılmış işlər.

2.4. Attestasiya prosesi açıq formatda keçirilir və aşağıdakı mərhələlərdən ibarətdir:

- doktorant tərəfindən yazılı illik hesabatın və təqdimatın təqdim edilməsi;

- elmi rəhbərin rəyinin təqdim olunması;
- doktorantın təqdimatı və şifahi çıxışı (təxminən 20 dəq.);
- sual-cavab və müzakirə (10 dəq.);
- Komissiyanın yekun müzakirəsi və qərar qəbul edilməsi.

2.5. Ezamiyyətdə və ya xaricdə elmi tədqiqat aparan doktorantların attestasiyası məsafədən (onlayn rejimdə) və ya yazılı hesabat əsasında keçirilə bilər.

2.6. Doktorantın təhsil haqqı üzrə öhdəliklərini yerinə yetirmədiyi hallar attestasiya üçün buraxılmama əsasını təşkil edir.

**3. Attestasiyaya təqdim ediləcək sənədlər**

Doktorant attestasiyada iştirak üçün aşağıdakı sənədləri Komissiyaya təqdim etməlidir:

- fərdi iş planı və onun icra vəziyyəti haqqında hesabat;
- elmi rəhbərin rəy məktubu;
- elmi məqalələrin, konfrans materiallarının, patent və digər elmi əsərlərin siyahısı (kopyaları əlavə olunur);
- cari tədris ilində görülmüş işlərin nəticələrini əks etdirən təqdimat;
- müvafiq kafedra və fakültə iclasından çıxarış (doktorantın fəaliyyəti haqqında).

Təqdim edilən sənədlər attestasiyadan ən geci 5 gün əvvəl Elmi katibə təqdim edilməlidir.

**4. Attestasiyanın qiymətləndirilməsi və nəticələri**

4.1. Komissiya doktorantın fəaliyyətini aşağıdakı əsas meyarlar üzrə qiymətləndirir:

- elmi-tədqiqat işinin məqsədyönlülüyü və elmi yeniliyi;
- tədqiqatın metodoloji səviyyəsi;
- elmi nəticələrin aktuallığı və praktik əhəmiyyəti;
- elmi nəşrlərin və konfrans çıxışlarının səviyyəsi;
- fərdi iş planında nəzərdə tutulan tapşırıqların yerinə yetirilmə vəziyyəti.

4.2. Qiymətləndirmə aşağıdakı formada həyata keçirilir:

– “Attestasiya olundu”;
– “Şərti attestasiya olundu” (doktorant müəyyən şərtləri 3 ay müddətində yerinə yetirməlidir);
– “Attestasiya olunmadı”.

4.3. Komissiya hər doktorant üzrə yekun qərar qəbul edir və protokolda aşağıdakı məlumatlar əks olunur:

- doktorantın adı, ixtisası, tədris ili;
- elmi rəhbərin rəyi;
- Komissiya üzvlərinin qiymətləndirməsi;
- yekun qərar və əlavə şərtlər (əgər tətbiq olunubsa).

4.4. “Attestasiya olunmadı” qərarı verilmiş doktorantlar BANM-in rektorunun əmri ilə doktorantura sırasından xaric edilir.

4.5. 4.2. və 4.4-cü bəndlərdə qeyd edilən qərarlara əsasən məlumatlar BANM-in daxili elektron məlumat bazasına daxil edilir və aidiyyəti dövlət qurumlarına təqdim olunur.

**5. Apellyasiya qaydası**

5.1. Doktorant attestasiya nəticəsi ilə razılaşmadıqda 5 (beş) iş günü müddətində BANM-in Attestasiya komissiyasına yazılı müraciət edə bilər.

5.2. Attestasiya komissiyası apellyasiya müraciətini 30 gün müddətində Elmi Şurada müzakirə üçün təqdim edir və yekun qərar qəbul edir.

5.3. Elmi Şuranın qərarı qətidir və əlavə şikayət vermə hüququ nəzərdə tutulmur.

**6. Elektron qeydiyyat, sənədləşmə və arxivləşdirmə**

6.1. Attestasiya nəticələri BANM-in elektron təhsil idarəetmə sistemində qeyd olunur və Elmi katib tərəfindən saxlanılır.

6.2. Attestasiya protokolları və doktorantların illik hesabatları 5 (beş) il Elmi katibdə, bundan sonra isə BANM-in arxivində mühafizə olunur.

6.3. Komissiyanın illik fəaliyyət nəticələri barədə ümumiləşdirilmiş hesabat BANM-in Elmi Şurasına təqdim edilir.

**7. Doktorantların hüquq və vəzifələri**

7.1. Doktorantların hüquqları:

- BANM-in elmi-tədqiqat laboratoriyalarından, kitabxana və avadanlıqlardan istifadə etmək;
- fərdi iş planının icrası üçün rəhbərlikdən metodiki və maddi-texniki dəstək almaq;
- tədqiqat nəticələrini beynəlxalq elmi jurnallarda nəşr etdirmək və konfranslarda iştirak etmək;
- attestasiyanın nəticələri ilə bağlı apellyasiya hüququndan istifadə etmək.

7.2. Doktorantların vəzifələri:

- fərdi iş planını və illik hesabatı vaxtında təqdim etmək;
- elmi rəhbərlə əməkdaşlıq çərçivəsində işin gedişinə dair məlumat vermək;
- illik attestasiyada iştirak etmək;
- BANM-in daxili intizam və etik davranış qaydalarına riayət etmək.

**8. Xüsusi hallar**

8.1. Ezamiyyətdə, xəstəlikdə və ya xarici ölkədə elmi tədqiqat aparan doktorantlar üçün attestasiyanın keçirilmə forması BANM rəhbərliyinin qərarı ilə fərdi qaydada müəyyən edilir.

8.2. Akademik məzuniyyətdə olan doktorantlar attestasiyadan məzuniyyət müddəti başa çatdıqdan sonra keçirlər.

**9. Yekun müddəalar**

9.1. Bu Qaydalar BANM-in rektorunun əmri ilə təsdiq olunduğu gündən qüvvəyə minir.

9.2. Qaydalara dəyişikliklər yalnız BANM-in rektorunun əmri ilə edilə bilər.

9.3. Qaydalar BANM-in rəsmi internet səhifəsində yerləşdirilir.